AZƏRBAYCAN www.azerbaijan-news.az

# Ömür yoluna nəzər salanda heyifsilənmir



Ömrünü mənalı yaşamağı özünün həyat amalına çevirməyə çalışanlar az olmur. Onlar kədərli günlərində belə, ruhdan düşməyərək sadəliyi, təvazökarlığı, hazırcavablığı, böyüklərə xas olmayan uşaqlıq təbəssümü ilə həm öz həyatını, həm də ətrafındakıları rövnəqləndirməyi bacarır. Adı gələndə istər-istəməz onu yaxından tanıyanların üzündə təbəssüm yaranır.

1936-cı il mayın 15-də Ağdam şəhərində ziyalı ailəsində anadan olmuş, ömrünün 80 ilini mənalı keçirən, idman sahəsində və elm aləmində xüsusi yeri olan Azərbaycan Boks Federasiyasının sabiq vitse - prezidenti, Milli Olimpiya Komitəsinin üzvü, Beynəlxalq dərəcəli hakim, Respublika Ağsaqqallar Şurasının üzvü, Prezident təqaüdçüsü, geologiya-minerologiya elmləri üzrə fəlsəfə doktoru, zəlzələşünas alim Ramiz Yusif oğlu Yusifov da həyatı necə yaşamalı olduğunu dərindən dərk edənlərdən biri kimi tanınır.

Ramiz Yusifov həm uşaqlıq, həm də gənclik illərində inadkarlığı ilə yoldaşları arasında fərqlənirdi. O, çox prinsipial olub: ağlına gələn ideyanı həyata keçirməyincə fikrindən əl çəkməyib. Həyatda həmişə mübariz olan Ramiz qələbəyə can atmağı daha çox sevib. "Əgər sakitcə oturub nəyisə gözləyirsənsə, deməli, zaman sənin üçün dayanıbdır", - deyə o öz yoldaşlarına həyatda daim fəal olmağı tövsiyə edib. Əgər istədiyi ilk dəfə alınmırdısa, yenidən həmin işə cəhd göstərirdi.

Bakı şəhərindəki 199 saylı orta məktəbdə oxuyarkən Ramizin güclü olduğunu görən Tofiq Bəhramov ona fiziki hazırlığına görə məsləhət görür ki, gedib boksla məşğul olsun. O zaman T.Bəhramov həmin məktəbdə idman müəllimi işləyirmiş. Ustad seçimində yanılmamışdı. Ramizin boksa olan marağı gündən-günə artırdı. Elə bu həvəs və marağa görə də o, 15 yaşında şəhər birinciliyinin çempionu adını qazanmışdı.

1952-ci ildən "Spartak" cəmiyyətində boksla məşğul olmağa başlayan Ramiz Yusifov 1954-1957-ci illərdə Ümumittifaq "Spartak" cəmiyyətinin yarışlarının gümüş və bürünc medallarını qazanır, 1954-cü ildə Tbilisidə II yeri tutur.

Ramiz Yusifov boks üzrə dəfələrlə şəhər və respublika birinciliklərinin, sonra isə SSRİ çempionatının iştirakçısı, 5 dəfə isə Azərbaycan çempionu olub. Onu da qeyd edək ki, o, hələ 1958-ci ildə "SSRİ idman ustası" dərəcəsinə layiq görülüb.

Dəfələrlə SSRİ birinciliklərində və çempionatlarında iştirak edib mükafata layiq yerlər tutmasına baxmayaraq, o zaman bəzi haqsızlıqlarla üzləşdiyini də görkəmli idman ustası gizlətmir: "Ümumittifaq "Spartak" cəmiyyətinin yığma komandasının tərkibində ən güclü boksçular Azərbaycandan olsalar da, məhz azərbaycanlı olduğumuza görə bizim imkanlarımız sıxışdırılır, hüquqlarımız əlimizdən alınırdı. Beynəlxalq yarışlarda azərbaycanlı boksçuların iştirak etmələrinə sədlər qoyulurdu. Bu hal nəinki boks, digər idman növlərində də özünü büruzə verirdi".

Ramiz Yusifovun idman sahəsində olduğu kimi, elmi fəaliyyətində də uğurları az olmayıb. Belə ki, 1959-cu ildə ADU-nun Geologiya fakültəsini bitirən Ramiz Yusifov 1965-ci ildə geologiya-mineralogiya elmləri üzrə namizədlik dissertasiyasını müdafiə edib. 1966-1980-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunda çalışdığı dövrdə isə kiçik elmi işçi vəzifəsindən böyük elmi işçi vəzifəsinədək yüksəlib.

1980-ci ildə respublikada seysmik tədqiqatların gücləndirilməsi məqsədilə təşkil olunan geofiziki ekspedisiyaya Ramiz Yusifov da daxil edilib və bundan sonrakı illərdə zəlzələ problemləri, onun nəticələrinin aradan qaldırılması ilə məşğul olub. 1984-cü ildə Özbəkistandakı Qazlı, 1985-ci ildə Səmərqənd-Buxara, 1989-cu ilin iyununda İranın Rüdbar və 1997-ci ildə Ərdəbildə baş verən zəlzələlərin nəticələrini aradan qaldırmaq üçün akademik Arif Həsənovun rəhbərliyi ilə təşkil edilmiş ekspedisiyasının tərkibində baş geoloq Ramiz Yusifov da vardı.

80-dən artıq elmi əsərin müəllifi olan R.Yusifovun çoxillik idman karyerası dövründə yaddaqalan hadisələr də az olmayıb. Belə ki, 1954-cü ildə beynəlxalq turnirdə iştirak etmək üçün Tbilisiyə gələn Ramiz Yusifov gəzinti zamanı təsadüfən şəhərdəki göllərdən birində azyaşlı oğlan uşağının boğulduğunu və onu xilas etmək istəyən anasının da batdığını görüb suya atılaraq onların hər ikisini xilas edir.

20 illik fasilədən sonra Ramiz Yusifov Azərbaycan Boks Federasiyasının prezidenti, akademik Ağacan Əbiyevin və fəxri idman ustası, Azərbaycanın əməkdar məşqçisi, beynəlxalq dərəcəli hakimi Tofiq Babanlının təkidləri nəticəsində yenidən boksa qayıdır. 1995-ci ildən Beynəlxalq dərəcəli hakim olan Ramiz müəllim dəfələrlə Avropa və dünya çempionatlarında uğurla iştirak edib. Həmin ərəfədə boksçularımız Avropa və dünya çempionatlarında 1 qızıl, 2 gümüş və 2 bürünc, Olimpiya oyunlarında isə 3 bürünc medal qazanmış, dünyanın 5 qitəsində Azərbaycan bayrağını qaldırmışlar.

Hazırda "Azpetrol" şirkətinin həmkarlar təşkilatının sədri olan, 80 illik ömür yoluna boylananda arxada qalan illəri üçün heyifsilənməyən, əksinə, qürur hissi keçirən, özünü ruhən və qəlbən gənc, təravətli, enerjili hesab edən Ramiz müəllimə bundan sonra da tükənməz həyat eşqi, ən ümdə olan cansağlığı arzulayırıq.

*Camal ZEYNALOĞLU*